**AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ**

AZ 1025, Bakı şəhəri, Yusif Səfərov küçəsi 26 Tel.: (+994 12) 489-07-07 Faks: (+994 12) 498-72-69 Veb: www.supremecourt.gov.az Elektron poçt: contact@supremecourt.gov.az

**30 aprel 2026-cı il** **1-8-11-2/2-3307/2026**

**Azərbaycan Respublikasının rayon (şəhər) və apellyasiya məhkəmələrinə**

# İ C M A L

(*Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 606.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalara dair işlərə baxılmasının bəzi məsələləri haqqında*)

Azərbaycan Respublikasının Ali Məhkəməsinə daxil olmuş müraciətlərlə əlaqədar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (bundan sonra - İXM) 606.3-cü maddəsində nəzərdə tutulmuş şəxslərin (çağırışçıların və hərbi vəzifəlilərin) bu Məcəllənin 604-cü maddəsində nəzərdə tutulan hal istisna olmaqla qanunla nəzərdə tutulmuş hallarda həqiqi hərbi xidmətə çağırış, tibbi müayinə (tibbi şəhadətləndirilmə), hərbi hissələrə təhkim edilmə, müvafiq toplanışlarla əlaqədar çağırış üzrə müvafiq icra hakimiyyəti orqanına üzrlü səbəblər olmadan gəlməməsi kimi inzibati xətalarla bağlı səlahiyyətli vəzifəli şəxslərin tərtib etdikləri protokollara və ya səlahiyyətli orqanların (vəzifəli şəxslərin) inzibati tənbehin tətbiq edilməsi barədə qərarlarından verilmiş şikayətlərə (protestlərə) məhkəmələr tərəfindən baxılması zamanı hüquq tətbiq etmə təcrübəsinin vahidliyini təmin etmək məqsədi ilə aşağıdakı izahlar verilsin:

**I.** Nəzərə alınmalıdır ki, İXM-in 606.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalara dair işlərə baxılması bu Məcəllənin 43.1-ci maddəsi ilə məhkəmələrə aid edilsə də, İXM-in 42.2-ci maddəsinə və Azərbaycan Respublikası Prezidentinin 23 fevral 2017-ci il tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın (bundan sonra - Siyahı) 12 və 12.0-cı bəndlərinə əsasən həmin inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyətinə həmçinin Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/VPLDJhbtqnbxXSzq4NlePji626sSEQnrzsOx5qTjvOc%3D

adından Xidmətin rəisi, onun müavinləri, Xidmətin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsinin rəisi, onun müavini, Xidmətin yerli baş idarə, idarə, şöbə və bölmələrinin rəisləri, onların müavinləri malikdirlər.

Həmçinin öz ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə qeyd edilən inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti Siyahının 10 və 10.0-cı bəndləri ilə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti adından Xidmətin rəisi, onun müavini, Xidmətin müvafiq strukturlarının rəhbərlərinə (rəislərinə), Siyahının 10-1 və 10-1.0-cı bəndləri ilə isə Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti adından Xidmətin rəisi, onun müavini, Xidmətin müvafiq strukturlarının rəhbərlərinə (rəislərinə) aid edilmişdir.

İXM-in 43.3-cü maddəsinə əsasən bu Məcəllənin 43.1-ci maddəsində göstərilən inzibati xətalar haqqında işlərə baxmaq hüququ müvafiq icra hakimiyyəti orqanı tərəfindən həmçinin səlahiyyətli orqanlara (vəzifəli şəxslərə) aid edildikdə, icraatında inzibati xətalar haqqında iş olan səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati xətanın xarakterini, inzibati xəta törədənin şəxsiyyətini, onun təqsirinin dərəcəsini, məsuliyyəti ağırlaşdıran halların və müsadirə olunmalı malların mövcudluğunu nəzərə alaraq, şəxs barəsində müvafiq maddənin sanksiyasında nəzərdə tutulan xəbərdarlıq və ya cərimə inzibati tənbeh tədbirlərindən daha ağır tənbeh tədbirinin tətbiqi üçün əsasların olması qənaətinə gəldikdə, inzibati xəta haqqında protokolu baxılmaq üçün məhkəməyə göndərir.

Odur ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti adından, habelə Dövlət Təhlükəsizliyi Xidməti və ya Xarici Kəşfiyyat Xidməti adından bu orqanların səlahiyyətli vəzifəli şəxsləri tərəfindən baxılmış inzibati xətalara dair işlər üzrə qərarlardan məhkəmələrə İXM-in 128.2.3-cü maddəsində nəzərdə tutulmuş qaydada şikayət (protest) verildikdə, Siyahıya əsasən (İXM-in 43.3-cü maddəsinin tələbləri nəzərə alınmaqla) həmin dövlət orqanlarının (vəzifəli şəxslərin) də belə işlərə baxmaq səlahiyyətinə malik olduğu nəzərdən qaçırılmamalı və bu cür dəlillə, yəni göstərilən dövlət orqanlarının vəzifəli şəxslərinin İXM-in 606.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalara dair işlərə baxmaq səlahiyyətində olmaması (İXM-in 43.1-ci maddəsi ilə belə işlərə baxmaq səlahiyyətinin yalnız məhkəməyə aid edilməsi) kimi yanlış əsasla inzibati tənbehin tətbiq edilməsi haqqında səlahiyyətli orqanların (vəzifəli şəxslərin) qərarlarının ləğv edilməsinə yol verilməməlidir.

**II.** Məhkəmələr tərəfindən istər bilavasitə İXM-in 606.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında protokollara, istərsə də belə inzibati xətalara dair işlər üzrə səlahiyyətli dövlət orqanının (vəzifəli şəxsin) inzibati tənbehin tətbiq edilməsi barədə qərarından verilmiş şikayətə (protestə) baxılarkən məsələnin həlli üçün mühüm əhəmiyyət kəsb edən hallar, o cümlədən barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin (İXM-in 606.3-cü maddəsində nəzərdə tutulmuş çağırışçının və ya hərbi vəzifəlinin) qanunla nəzərdə tutulmuş hallarda həqiqi hərbi xidmətə çağırış, tibbi müayinə (tibbi şəhadətləndirilmə), hərbi hissələrə təhkim edilmə, müvafiq toplanışlarla əlaqədar çağırış üzrə (müəyyən olunmuş vaxtda) müvafiq icra hakimiyyəti orqanına gəlib-gəlməməsi, çağırışçı və ya hərbi vəzifəli vaxtında müvafiq icra hakimiyyəti orqanına gəlməyibsə, bunun

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/VPLDJhbtqnbxXSzq4NlePji626sSEQnrzsOx5qTjvOc%3D

üzrlü səbəblərdən baş verib-verməməsi tam, hərtərəfli və obyektiv araşdırılmalı, inzibati xətalar haqqında protokollara baxılarkən İXM-in 606.3-cü maddəsində göstərilən əməlin hərbi xidmətdən yayınmaq üçün törədildiyi (İXM-in 606-cı maddəsinin “Qeyd” hissəsinin 2-ci bəndində göstərilən hal) müəyyən edildikdə isə İXM-in 114.2 və 114.2.3-cü maddələrinə uyğun olaraq iş üzrə materiallar ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməklə inzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi haqqında qərar qəbul edilməlidir.

**III.** İXM-in 606-cı maddəsinin “Qeyd” hissəsinin 1-ci bəndində təsbit edilən “Bu Məcəllənin 606.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətanı törətmiş şəxs barədə məhkəmə qərar qəbul edənədək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) gəldikdə inzibati məsuliyyətdən azad olunur” qaydası təfsir edilərkən nəzərə almaq lazımdır ki, “məhkəmə qərar qəbul edənədək” dedikdə, birinci instansiya məhkəməsi tərəfindən bilavasitə inzibati xəta haqqında işə (inzibati xəta haqqında protokola) baxılmasının nəticələrinə görə çıxarılan qərar ehtiva olunur.

Belə ki, bu güzəştli qaydanın əsasında İXM-in 606.3-cü maddəsində nəzərdə tutulmuş əməli törətmiş çağırışçını və ya hərbi vəzifəlini məhkəmə tərəfindən inzibati xətaya görə məsuliyyət məsələsi həll olunanadək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) gəlməyə, qanunauyğun davranışa stimullaşdırmaq məqsədi dayanır.

Burada güzəştin tətbiqi çağırışçının və ya hərbi vəzifəlinin məhkəmə qərar qəbul edənədək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) gəlməsi ilə şərtləndirilirsə, onu belə davranış (hüquqazidd əmələ son qoyması) müqabilində gözləyən güzəşt qismində (stimullaşdırıcı faktor rolunda) inzibati məsuliyyətdən azad olunma, yəni inzibati tənbehin tətbiq edilməməsi çıxış edir.

Bu isə əməli törətmiş şəxsdən inzibati məsuliyyətə cəlb edilməsi üzrə məsələnin həllini ehtiva edən inzibati tənbehin tətbiq edilməsinə dair məhkəmə qərarının çıxarılmasınadək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) gəlməsini tələb edir və bu səbəbdən artıq inzibati tənbehin verilməsi (tətbiq edilməsi) barədə qərar çıxarıldıqdan sonra, o cümlədən mübahisələndirilməsi ilə əlaqədar belə qərarın qüvvəyə minmədiyi müddətdə şəxsin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) gəlməsi İXM-in 606-cı maddəsinin “Qeyd” hissəsinin 1-ci bəndinin tətbiqinə əsas verən hal kimi qiymətləndirilməməlidir.

Odur ki, İXM-in 128.2.3-cü maddəsinə müvafiq olaraq hazırkı icmalın I hissəsində göstərilən səlahiyyətli orqanların (vəzifəli şəxslərin), o cümlədən Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti adından müvafiq vəzifəli şəxslərin inzibati tənbehin tətbiqinə dair qərarlarından verilmiş şikayətlərə (protestlərə) baxılması ilə əlaqədar məhkəmələrin çıxardıqları qərarlar İXM-in 606-cı maddəsinin “Qeyd” hissəsinin 1-ci bəndi ilə ehtiva olunan “məhkəmə qərarı”, barəsində inzibati tənbeh tətbiq edilmiş (artıq buna dair barəsində səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarı olan) şəxsin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) gəlməsi isə həmin müddəanın ehtiva etdiyi davranış kimi nəzərdə keçirilə bilməz və belə

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/VPLDJhbtqnbxXSzq4NlePji626sSEQnrzsOx5qTjvOc%3D

şəxslərin barəsində verilmiş şikayətlərə (protestlərə) baxılarkən İXM-in 606-cı maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndinə əsasən inzibati məsuliyyətdən azad etmə barədə qərarların çıxarılmasına yol verilməməlidir.

Lakin əgər səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati tənbehin tətbiq edilməsinə dair qərarından verilmiş şikayətə (protestə) məhkəmədə baxılarkən çağırışçının və ya hərbi vəzifəlinin səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən bu qərar çıxarılanadək, yəni inzibati məsuliyyət məsələsi həll olunanadək İXM-in 606-cı maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndinə uyğun davranış nümayiş etdirməklə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) gəldiyi, buna baxmayaraq onun barəsində səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati tənbehin tətbiq edildiyi müəyyən edildikdə, İXM-in 134.1.3 və 135.1.5-1-ci maddələrinə müvafiq olaraq, həmin Məcəllənin 53-cü maddəsi və İXM-in 606-cı maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndi birlikdə əsas kimi götürülməklə səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarı ləğv edilərək inzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi haqqında qərar çıxarılmalıdır.

Çünki İXM-in 606-cı maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndində nəzərdə tutulmuş müsbət davranışın inzibati məsuliyyətdən azad etməni şərtləndirən əsas kimi təsbit edilməsi, eyni zamanda İXM-in 606.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalara dair işlərə baxmaq və inzibati tənbeh tətbiq etmək (inzibati məsuliyyətə cəlb etmək) səlahiyyətinin yalnız məhkəmələrə deyil, həm də müvafiq dövlət orqanlarına (vəzifəli şəxslərə) aid edilməsi həmin bənddə göstərilən "məhkəmə qərar qəbul edənədək" formuləsinin geniş təfsir edilməsini, şərh edilən güzəştli qaydanın inzibati xətalara dair işlərə səlahiyyətli orqanlar (vəzifəli şəxslər) tərəfindən baxılması zamanı da rəhbər tutulmalı olan müddəa kimi nəzərdən keçirilməsini tələb edir.

Əks hüquqi mövqe İXM-in 606-cı maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndində təsbit edilmiş inzibati məsuliyyətdən azad etməyə dair qaydanın, ümumiyyətlə bu institutun mahiyyətinə zidd yanaşma olardı.

Odur ki, səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati tənbehin tətbiq edilməsinə dair qərarından verilmiş şikayətə (protestə) məhkəmədə baxılarkən çağırışçının və ya hərbi vəzifəlinin səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən həmin qərar çıxarılanadək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) gəldiyi, lakin onun barəsində səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati tənbehin tətbiq edildiyi müəyyən edildikdə, bu hal İXM-in 606-cı maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndinin pozulması kimi qiymətləndirilməli və həmin pozuntu səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarı ləğv edilərək inzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi haqqında qərar çıxarılmaqla aradan qaldırılmalıdır.

**Cinayət kollegiyasının sədri** **Hafiz Nəsibov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/VPLDJhbtqnbxXSzq4NlePji626sSEQnrzsOx5qTjvOc%3D